Azərbaycan Respublikası
**Ekologiya və Təbii Sərvətlər**
Nazirliyi

# 2019-2022-ci illər üçün ekoloji siyasətin əsas istiqamətləri və hər bir istiqamət üzrə həyata keçiriləcək tədbirlər

Məlumat mərkəzi- Ekoloji siyasət - 2019-2022-ci illər üçün ekoloji siyasətin əsas istiqamətləri və hər bir istiqamət üzrə həyata keçiriləcək tədbirlər

- **Ətraf mühitin çirklənməsinin minimuma endirilməsi və mühafizəsinin tənzimlənməsi istiqamətində mütərəqqi üsulların tətbiq edilməsi, mövcud ekoloji sistemlərin qorunması:**

- Tullantıların, o cümlədən polietilen və plastik qablaşdırma materiallarının idarə olunmasında mütərəqqi üsullardan istifadə, istehsalçıların genişləndirilmiş məsuliyyətinin tətbiqi;
- Tikinti materialları üçün xammal hesab olunan faydalı qazıntıların (qum, qum-çınqıl, əhəng daşı, kvars qumu, gil və s.) hasilatı prosesində müvafiq qanunvericiliyin tələblərinin icrasına nəzarətin gücləndirilməsi;
- BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Paris Sazişindən irəli gələn öhdəliklərin yerinə yetirilməsi üçün aidiyyəti dövlət qurumları tərəfindəm istilik effekti yaradan qaz tullantılarının azaldılması üzrə tədbirlərin görülməsi;
- Yaşıllıqların mühafizəsi;
- Xəzər dənizinin çirklənmədən qorunması;
- Müasir metodlardan istifadə etməklə təbii sərvətlərin axtarışı, kəşfiyyatı və hasilatı prosesində ətraf mühitə təsirlərin azaldılması;
- İqtisadiyyatın bütün sahələrinin inkişafı prosesində ətraf mühitin mühafizəsi tələblərinin ön plana çəkilməsi;
- Biomüxtəlifliyin mühafizəsi və xüsusi mühafizə olunan təbiət ərazilərinin infrastrukturunun inkişafı;

- Su ehtiyatlarının, o cümlədən transsərhəd suların inteqrasiyalı idarə olunması;
- "Yaşıl iqtisadiyyat"ın inkişafı, xüsusi ilə kiçik və orta müəssisələrin fəaliyyətinin yaşıllaşdırılması.

- **Qanunvericiliyin təkmilləşdirilməsi:**

- Atmosfer havasına və su obyektlərinə çirkləndirici maddələrin atılmasına, habelə tullantıların yerləşdirilməsinə görə ödəmə normativlərinin müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi;
- Sudan ödənişli istifadə ilə bağlı qanunvericiliyin qəbul edilməsi;
- Meşələrə dair qanunvericiliyin pozulması ilə bağlı tətbiq edilən maliyyə sanksiyalarının müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi;
- Yerin təkindən istifadənin norma və qaydalarının təkmilləşdirilməsi, hüquqi bazanın möhkəmləndirilməsi;
- Ekoloji standartların beynəlxalq tələblərə uyğunlaşdırılması və sertifikatlaşdırma sisteminin təkmilləşdirilməsi.

- **Çirklənmiş ərazilərin təmizlənməsi və həmin ərazilərin ekoloji bərpası, yaşıllıqların salınması:**

- Lay sularının ərazidən kənarlaşdıraraq idarə olunması, neft şlamlarının zərərsizləşdirilməsi və ya anbarlaşdırılması;
- Neftlə çirklənmiş torpaqların bərpası üçün sağlamlaşdırma tədbirlərinin görülməsi;
- Müxtəlif maddələrlə çirklənmiş göl və gölməçələrin bərpası.

- **Meşələrin və yaşıllıq ərazilərinin artırılması:**

- Meşə quruluşu (inventarizasiya) işlərinin aparılması;
- Meşə ilə örtülü sahələrin miqyasının artırılması, o cümlədən aqromeşə massivlərinin salınması;
- Arid ərazilərdə, o cümlədən magistral avtomobil yollarının ətrafında yaşıllıqların salınması.

- **Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun təbii sərvətlərdən səmərəli istifadə, alternativ enerji mənbələrindən istifadənin inkişafı və enerji effektivliyinə nail olunması:**

- Enerji səmərəliliyinin təmin olunması;
- Alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi;
- Su ehtiyatlarından səmərəli istifadə;
- Təmizlənmiş tullantı sularından təkrar istifadə;
- Ekoturizmin inkişafı;
- Mineral xammala tələbatın yerli ehtiyatlar hesabına ödənilməsi məqsədi ilə geoloji axtarış və axtarış-qiymətləndirmə işlərinin genişləndirilməsi;
- Meşə və qeyri-meşə fondu torpaqlarında salınmış meyvə bağlarının məhsullarından istifadə;
- Mineral və termal su ehtiyatlarının potensialından istifadə olunması;
- Şirin su və dəniz əmtəə akvakulturasının inkişafı.

- **Ətraf mühitin monitorinqi və hidrometeoroloji müşahidə sisteminin təkmilləşdirilməsi:**

- Ətraf mühitin monitorinqi sisteminin təkmilləşdirlməsi, o cümlədən müasir kompleks labarotoriyalarının yaradılması;

- Təhlükəli hidrometeoroloji hadisələrin erkən xəbərdarlıq sisteminin təkmilləşdirilməsi, hidrometeoroloji müşahidə və monitorinq sisteminin modernləşdirilməsi,

- **Geodeziya və kartoqrafiya sisteminin modernləşdirilməsi, coğrafi informasiya sistemin yaradılması:**

- Geodeziya və kartoqrafiya sahəsində strateji əhəmiyyət kəsb edən coğrafi məlumat sisteminin yaradılması;
- Dövlət sərhədlərinin delimitasiyası, demarkasiyası, redemarkasiyası işlərinin aparılması;
- Müdafiə təyinatlı rəqəmsal topoqrafik xəritələrin beynəlxalq standartlara uyğunlaşdırılması.

- **Ekoloji problemlərin təhlili, həlli yollarının müyyənləşdirilməsi, insan kapitalının inkişaf etdirilməsi və əhalinin ekoloji təfəkkürünün artırılması:**

- Mövcud ekoloji vəziyyətin təhlili;
- Ekologiya sahəsində kadr potensialının gücləndirilməsi; Əhalinin ekoloji maarifləndirilməsi.